**"Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, idxal-ixrac edilən heyvanların, heyvan mənşəli məhsulların və xammalın baytarlıq (baytarlıq-sanitariya) vəziyyətinin yoxlanılması və müvafiq baytarlıq sənədinin verilməsi, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları"nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

«Baytarlıq haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanının 1.7-ci, 1.16-cı və 1.25-ci bəndlərinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, idxal-ixrac edilən heyvanların, heyvan mənşəli məhsulların və xammalın baytarlıq (baytarlıq-sanitariya) vəziyyətinin yoxlanılması və müvafiq baytarlıq sənədinin verilməsi, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 21 aprel 2009-cu il
№ 66

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2009-cu il 21 aprel
tarixli 66 nömrəli qərarı ilə
**təsdiq edilmişdir**

**Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, idxal-ixrac edilən heyvanların, heyvan mənşəli məhsulların və xammalın baytarlıq (baytarlıq-sanitariya) vəziyyətinin yoxlanılması və müvafiq baytarlıq sənədinin verilməsi, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması**

## QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar «Baytarlıq haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanının 1.7-ci, 1.16-cı və 1.25-ci bəndlərinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac

edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, idxal-ixrac edilən heyvanların, heyvan mənşəli məhsulların və xammalın, yem və yem əlavələrinin baytarlıq (baytarlıq-sanitariya) vəziyyətinin yoxlanılması və müvafiq baytarlıq sənədinin verilməsi, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması qaydalarını müəyyən edir.

Azərbaycan Respublikasının dövlət sərhədinin buraxılış məntəqələrində baytarlıq nəzarətini gömrük orqanları həyata keçirir və bu sahədə öz fəaliyyətini qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət baytarlıq xidməti orqanları ilə əlaqələndirirlər. [1]

1.2. Heyvan mənşəli məhsul, xammal əsas anlayışları:

1.2.1. heyvan mənşəli məhsullar - ət, süd, yumurta, bal və s;

1.2.2. heyvan mənşəli xammal - gön, dəri, yun, tük, qıl, lələk, sümük, buynuz, dırnaq, qida və yem üçün yaramayan digər heyvan mənşəli tullantılar və baytarlıq konfiskatları;

1.2.3. yemlər - heyvan orqanizminin qida maddələrinə və bioloji fəal maddələrə olan tələbatını ödəyə bilən və heyvanların yemlənməsi üçün istifadə olunan hər cür təbii bitki və heyvan mənşəli məhsullar və onlardan heyvanların yemlənməsi üçün xüsusi hazırlanmış yem əlavələri və bioloji fəal maddələrlə zənginləşdirilmiş qarışıq yemlər;

1.2.4. yem əlavələri - yemlərin qidalılığını və onlardakı bioloji fəal maddələrin miqdarını heyvan orqanizminin tələbatına uyğun olaraq artırılması və yemlərin keyfiyyətinin qorunub saxlanması və mənimsənilməsinin yaxşılaşdırılması məqsədi ilə yemlərə əlavə edilən qidalı maddələr (ət-sümük unu, sümük unu, qan unu, balıq unu, toyuq unu, drojlar, (mayalar), cecələr, şrotlar, yağlar, aminli turşular və s.), bioloji fəal maddələr (vitaminlər, minerallar, mikroelementlər və s.), qoruyucular (stabilizatorlar, antioksidantlar, sorbentlər, antimikrob agentlər və s.), fermentlər və s.

## 2. Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili

2.1. Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə, hüquqi və fiziki şəxslər tərəfindən baytarlıq (baytarlıq-sanitariya) qaydalarına və normativlərinə əməl edilməsinə dövlət baytarlıq nəzarəti aşağıdakı qaydada aparılır:

2.1.1. mütəmadi kliniki baxış və laboratoriyada diaqnostik müayinələr aparılmaqla, heyvanların (mal-qara, quşlar, balıqlar, anlar, vəhşi heyvanlar və s.) xəstəliklərə görə sağlamlığının, insan və heyvan həyatı üçün təhlükəli olub-olmamasının müəyyənləşdirilməsi;

2.1.2. bütün təsərrüfatlarda istehsal olunan heyvan mənşəli məhsulların və xammalın təhlükəsizliyinin, keyfiyyətinin təmin edilməsi məqsədi ilə baytarlıq tədbirlərinin görülməsi və müayinələrin aparılması;

2.1.3. ölkə ərazisinə başqa dövlətlərdən yoluxucu və ekzotik xəstəliklərin törədicilərinin keçməsinin və yayılmasının qarşısının alınması;

2.1.4. heyvanların planlı profilaktik və ya məcburi peyvənd edilməsi, heyvan xəstəliklərinin baş verməsinin və yayılmasının qarşısının alınması;

2.1.5. heyvanların və baytarlıq nəzarətində olan bütün məhsulların baytarlıq sənədlərinin vaxtında və düzgün tərtib olunması.

2.2. Ölkə daxilində heyvanların, heyvan mənşəli məhsulların və xammalın hər hansı bir inzibati ərazidən kənara çıxarılmasına yalnız həmin ərazinin dövlət baytarlıq müfəttişi tərəfindən belə yüklərə tərtib edilmiş müvafiq arayış (yük rayon-şəhər ərazisindən kənara

çıxarılmadıqda, 1 nömrəli əlavə) və ya şəhadətnamə (ölkə ərazisində daşınması üçün, 2 və 3 nömrəli əlavələr) verildikdə yol verilir.

2.3. Dövlət baytarlıq nəzarətində olan və ölkə ərazisində daşman yeyinti məhsullarına baytarlıq şəhadətnaməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 sentyabr tarixli 142 nömrəli qərarı ilə təsdiq edilmiş «Baytarlıq şəhadətnaməsinin forması» və «Yeyinti məhsullarına baytarlıq şəhadətnaməsinin verilməsi Qaydası»na uyğun verilir.

2.4. Heyvanların, heyvan mənşəli məhsulların və xammalın ticarəti aparılan bütün ticarət yerlərində dövlət baytarlıq nəzarətində olan yüklərin onlara verilən baytarlıq sənədlərinə uyğunluğunun qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlanılması, insan sağlamlığına zərər verə bilən heyvan mənşəli məhsullara və xammala baytarlıq baxışının keçirilməsi məcburidir.

## 3. İdxal-ixrac edilən heyvanların, heyvan mənşəli məhsulların və xammalın, yem və yem əlavələrinin baytarlıq (baytarlıq-sanitariya) vəziyyətinin yoxlanılması, onların ölkə ərazisinə gətirilməsi və ölkə ərazisindən çıxarılması

3.1. Heyvanların, heyvan mənşəli məhsulların və xammalın Azərbaycan Respublikasının ərazisinə gətirilməsinə və ölkə ərazisindən aparılmasına yalnız dövlət sərhədinin buraxılış məntəqələri olan yerlərdə yol verilir.

3.2. Azərbaycan Respublikasının ərazisinə heyvanların, həmçinin inkubasiya üçün yumurtaların idxalı «Baytarlıq haqqında» Azərbaycan Respublikası Qanununun 14.2-ci maddəsinə uyğun olaraq tənzimlənir.

3.3. Dövlət baytarlıq nəzarətində olan yüklər Azərbaycan Respublikasına göndərilməzdən əvvəl, həmin yüklərə «Baytarlıq haqqında» Azərbaycan Respublikası Qanununun 14.3-cü maddəsinə uyğun olaraq beynəlxalq baytarlıq sertifikatı verilir.

3.4. Beynəlxalq baytarlıq sertifikatlarının qarşılıqlı surətdə tanınması qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

3.5. İnsanların qidalanması üçün ət, süd və digər heyvan mənşəli məhsulların ixracı «Baytarlıq haqqında» Azərbaycan Respublikası Qanununun 14.5-ci maddəsinə uyğun tənzimlənir.

3.6. Heyvanların yemləndirilməsi, əczaçılıq, kənd təsərrüfatı və sənaye üçün istifadə edilməsi məqsədi ilə heyvan mənşəli məhsullar Azərbaycan Respublikasının ərazisindən ixrac edildikdə, Beynəlxalq Epizootik Büronun tövsiyələrinə əsasən bu Qaydaların 5-ci bəndinə uyğun hazırlanmış müvafiq beynəlxalq baytarlıq sertifikatı ilə təmin edilməlidir.

3.7. Kolleksiya məqsədi ilə əldə olunan zooloji, arxeoloji və paleontoloji əşyalar (heyvanların müqəvvası, ölmüş heyvanların qalıqları və digər kolleksiya əşyaları) inzibati ərazinin Beynəlxalq Epizootik Büronun siyahısına daxil olan xəstəliklərdən azad olması haqqında müvafiq baytarlıq sənədi ilə müşayiət edilməlidir.

3.8. Virus və bakterial kulturaların, genetik strukturların, o cümlədən toksinlərin (biomaterialların) idxalı və ixracı beynəlxalq razılaşmalara və baytarlıq-sanitariya tələblərinə riayət etməklə həyata keçirilir.

3.9. Kökünün kəsilməsi təhlükəsi altında olan vəhşi heyvan növlərinin, onların törəmələrinin və ov qənimətlərinin Azərbaycan Respublikasına idxalına, onları ixrac edən ölkənin bu sahədə müvafiq orqanlarının icazəsi olduqda yol verilir.

3.10. Dövlət baytarlıq nəzarətində olan yüklərin ixracı və idxalı Dövlət Baytarlıq Nəzarəti Xidməti və onun yerli qurumları tərəfindən həmin ölkələrdə epizootik vəziyyət,

heyvan xəstəlikləri törədicilərinin yayılmasını istisna edən baytarlıq (baytarlıq-sanitariya) qaydaları barədə əvvəlcədən məlumatlar almaqla həyata keçirilir.[2]

3.11. Ölkə ərazisinə dövriyyəyə buraxılmış dövlət baytarlıq nəzarətində olan yüklərin baytarlıq-sanitariya baxımından qiymətləndirilməsi (emala verilməsi, yem üçün istifadəsi, zərərsizləşdirilməsi, məhv edilməsi və s.) üçün nümunələrin götürülməsi həmin ərazinin dövlət baytarlıq müfəttişləri tərəfindən həyata keçirilir.

3.12. Ölkə ərazisini xaricdən keçə biləcək xəstəliklərdən qorumaq məqsədi ilə başqa ölkələrdən gətirilən heyvanların sağlamlığını müəyyənləşdirmək üçün həmin heyvanlar təcrid olunmuş halda karantində saxlanılır.

3.13. Bu Qaydalara uyğun olaraq heyvanların, heyvan mənşəli məhsulların və xammalın idxalına, ixracına, ölkə ərazisində daşınmasına baytarlıq sənədlərinin (sertifikat, şəhadətnamə, arayış) verilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş hallarda və məbləğdə dövlət rüsumu və ya haqq tutulur.

## 4. İdxal edilən heyvanlara, heyvan mənşəli məhsuüara və xammala verilmiş baytarlıq sənədlərinə baxış keçirilməsi

4.1. Xarici ölkələrdən heyvanların, heyvan mənşəli məhsulların və xammalın ölkə ərazisinə gətirilməsi həmin ölkənin epizootik vəziyyəti və Azərbaycan Respublikasının baytarlıq (baytarlıq-sanitariya) tələbləri nəzərə alınmaqla və belə yüklərə Beynəlxalq Epizootik Büronun tövsiyələrinə uyğun tərtib edilmiş müvafiq baytarlıq sertifikatı olduqda yol verilir.

4.2. Daşıyıcı və ya mah müşayiət edən şəxs tərəfindən heyvan, heyvan mənşəli məhsullar və xammal Azərbaycan Respublikasının ərazisinə idxal edilərkən, baytarlıq sertifikatlarının əsli dövlət sərhədinin buraxılış məntəqəsinə təqdim olunur.

4.3. Heyvanlar, heyvan mənşəli məhsullar və xammal ölkə ərazisinə daxil olduqda və qüvvədə olan baytarlıq (baytarlıq-sanitariya) qanunvericiliyinin tələbləri pozulmadıqda, belə yüklərə verilmiş beynəlxalq baytarlıq sertifikatı əsasında yükün buraxılması "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş qaydada həyata keçirilir.

4.4. Heyvanlara, heyvan mənşəli məhsullara və xammala, yem və yem əlavələrinə verilmiş baytarlıq sertifikatının sahibi ona verilən sənədi yalnız özü istifadə edə bilər.

4.5. Baytarlıq sertifikatı müxtəlif xətlə, rənglə və şriftlə yazıldıqda, düzəliş edildikdə, möhürsüz olduqda, yaxud möhür aydın oxunmadıqda, sənədi imzalayan şəxsin imzası, tam vəzifəsi və soyadı, adı qeyd edilmədikdə, sənədin verilmə tarixi və tələb olunan digər məlumatlar göstərilmədikdə etibarsız sayılır.

## 5. İxrac edilən heyvanlara, heyvan mənşəli məhsullara və xammala baytarlıq sertifikatının verilməsi

5.1. Azərbaycan Respublikasından ixrac olunan heyvanların, heyvan mənşəli məhsulların və xammalın baytarlıq sahəsi üzrə beynəlxalq standartların tələblərinə uyğun olmasını təmin etmək məqsədi ilə belə yüklərin baytarlıq sertifikatlaşdırılması aparılır.

5.2. Baytarlıq sertifikatları və ya onların elektron əvəzediciləri Beynəlxalq Epizootik Büronun tövsiyələri nəzərə alınmaqla tərtib edilir və Dövlət Baytarlıq Nəzarəti Xidmətinin yerli qurumları tərəfindən verilir.

5.3. Baytarlıq sertifikatının alınması üçün fiziki və ya hüquqi şəxs (bundan sonra - ərizəçi) heyvanları, heyvan mənşəli məhsulları və xammalı xarici ölkəyə yola salmazdan ən azı 5 (beş) gün əvvəl dövlət baytarlıq orqanına ərizə ilə müraciət etməlidir (fiziki şəxslər adını, soyadını, atasınm adını, qeydiyyatda olduğu ünvanı, hüquqi şəxslər isə dövlət qeydiyyatı haqqında məlumatları qeyd etməlidirlər). Təqdim olunan ərizə dövlət baytarlıq orqanı tərəfindən qəbul edilir və qeydə alınır.

5.4. Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

5.4.1. sertifikatın verilməsi üçün qanunvericiliklə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun ödənilməsi barədə sənəd;[3]

5.4.2. sertifikatın verilməsi üçün nəzərdə tutulan yüklərin təsviri:

xrac olunan heyvanların, heyvan mənşəli məhsulların və xammalın adı, miqdarı (sayı) və mənşəyi (damazlıq heyvanlar ixrac edilərkən müvafiq dövlət orqanının rəyi əlavə edilir);

idxalçı ölkənin adı və yükün daxilolma ünvanı;

heyvanların, heyvan mənşəli məhsulların və xammalın yüklənmə yeri və tarixi;

5.4.3. idxal edən ölkənin baytarlıq-sanitariya tələbləri.

5.5. Ərizəçidən bu Qaydalarda nəzərdə tutulmayan sənədlərin tələb olunmasına yol verilmir.

5.6. Dövlət baytarlıq orqanları tərəfindən ixrac olunan heyvanlara, heyvan mənşəli məhsullara və xammala onların xüsusiyyətləri, ərazinin epizootik vəziyyəti nəzərə alınaraq, baytarlıq (baytarlıq-sanitariya) tələblərinə uyğun baxış keçirilir, müayinələr aparılır və imtina üçün əsaslar olmadıqda yükə 3 (üç) iş günü müddəti ərzində yükün növündən asılı olaraq, bu Qaydaların 4-18 nömrəli əlavələrinə uyğun tərtib edilmiş baytarlıq sertifikatı verilir.

5.7. Kökünün kəsilməsi təhlükəsi altında olan vəhşi heyvan növlərinin, onların törəmələrinin və ov qənimətlərinin Azərbaycan Respublikasından çıxarılmasına Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi olduqda yol verilir.

5.8. Baytarlıq sertifikatı eyni nömrədə 2 (iki) nüsxədə hazırlanır, onun bir nüsxəsi ərizəçiyə verilir, digər nüsxəsi isə sənədi vermiş dövlət baytarlıq orqanında saxlanılır.

5.9. Baytarlıq sertifikatı verildiyi tarixdən 10 (on) gün müddətində istifadə edilməklə, həmin yükün çatdırılacağı təyinat yerinədək qüvvədədir.

5.10. Heyvanlara, heyvan mənşəli məhsullara və xammala verilmiş baytarlıq sertifikatın sahibi ona verilən sertifikatı yalnız özü istifadə edə bilər.

5.11. Sertifikat xüsusi blanklarda tərtib edilir və mühafizə olunur. Baytarlıq sertifikatı ciddi hesabat blankıdır və onu verən dövlət baytarlıq orqanının rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiqlənir.

5.12. Baytarlıq sertifikatının düzgün tərtib olunmasına və qanunvericiliyin tələblərinə uyğun gəlməsinə belə sənədi vermiş dövlət baytarlıq orqanının rəhbəri bilavasitə məsuliyyət daşıyır.

5.13. Sertifikat hər hansı səbəbdən itirildikdə, onun qanunvericiliyə uyğun olaraq dublikatı verilir.

5.14. Sertifikat müxtəlif xətlə, rənglə və şriftlə yazıldıqda, düzəliş edildikdə, möhürsüz olduqda, yaxud möhür aydın oxunmadıqda, sənədi imzalayan şəxsin imzası, vəzifəsi və soyadı, adı qeyd edilmədikdə, sənədin verilmə tarixi və tələb olunan digər məlumatlar göstərilmədikdə etibarsız sayılır.

5.15. Baytarlıq sertifikatının verilməsinə aşağıdakı hallarda imtina edilir:

5.15.1. bu Qaydaların 5.3-cü və 5.4-cü bəndlərində müəyyən edilmiş sənədlər təqdim olunmadıqda;

5.15.2. ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda;

5.15.3. baytarlıq baxışı zamanı heyvanların və əhalinin sağlamlığı üçün təhlükə törədən xüsusi təhlükəli xəstəliklər aşkar edildikdə;

5.15.4. göndərilən yüklər baytarlıq (baytarlıq-sanitariya) tələblərinə cavab vermədikdə;

5.15.5. qanunvericiliklə müəyyən edilmiş digər hallarda.

5.16. Baytarlıq sertifikatının verilməsindən imtina edildikdə, bu barədə ərizəçiyə imtinanın səbəbləri göstərilməklə, 3 (üç) iş günü müddətində yazılı məlumat verilir.

5.17. Baytarlıq sertifikatının verilməsindən imtina barədə qərardan qanunvericiliyə uyğun olaraq aidiyyəti dövlət orqanına və ya məhkəməyə şikayət verilə bilər.

5.18. Baytarlıq sertifikatı aşağıdakı hallarda ləğv edilir:

5.18.1. sertifikatın sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

5.18.2. sertifikatın sahibi tərəfindən baytarlıq (baytarlıq-sanitariya) tələblərinə əməl edilmədikdə;

5.18.3. məhkəmənin müvafiq qərarı olduqda;

5.18.4. hüquqi şəxs ləğv edildikdə və ya fiziki şəxs öldükdə;

5.18.5. qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

5.19. Baytarlıq sertifikatını verən dövlət baytarlıq orqanı sertifikatın ləğv edilməsi haqqında qərar qəbul etdiyi andan 3 (üç) iş günü müddətində yazılı surətdə sertifikatın sahibinə məlumat göndərir.

5.20. Dövlət baytarlıq nəzarətində olan yüklərə baytarlıq sertifikatını verən dövlət baytarlıq orqanı həmin sertifikatın ləğv olunması barədə kütləvi informasiya vasitələri ilə məlumat yayır.

5.21. Heyvanlar, heyvan mənşəli məhsullar və xammal dövlət sərhədindən keçərkən, onlara verilmiş baytarlıq sertifikatı dövlət sərhədinin buraxılış məntəqəsinə təqdim edilir. Dövlət sərhədinin buraxılış məntəqəsi tərəfindən təqdim edilmiş sertifikatda müvafiq qeydlər aparılmaqla, həmin yüklər açılmadan, bölünmədən, digər yüklərə qarışdırılmadan və yenidən qablaşdırılmadan müəyyən olunmuş qaydada yola salınır.

5.22. Yükdə və ya onun daşındığı nəqliyyat vasitələrində baytarlıq (baytarlıq-sanitariya) qaydalarının pozulması hallan aşkar olunduqda, gömrük orqanlarının bildirişinə əsasən dövlət baytarlıq müfəttişləri tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görülür.

## 6. Dövlət baytarlıq nəzarətində olan yüklərin ölkə daxilində daşınması

6.1. Azərbaycan Respublikasının ərazisində dövlət baytarlıq nəzarətində olan yüklərin daşınmasına baytarlıq nəzarəti bu yüklərin tranziti (dövlət sərhədinin buraxılış məntəqələrində istisna olmaqla) və respublika daxilində yerdəyişməsi ilə əlaqədar həyata keçirilir. [4]

6.2. Dövlət baytarlıq nəzarətində olan yüklərin tranziti "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

6.3. Dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasının ərazisində daşınmasına baytarlıq nəzarəti aşağıdakıları əhatə edir:

6.3.1. dövlət baytarlıq nəzarətində olan yüklərin yüklənməsinin və boşaldılmasının dövlət baytarlıq müfəttişlərinin nəzarəti altında həyata keçirilməsini;

6.3.2. kənd təsərrüfatı heyvanlarımın köç yolları və daşınma marşrutlarının aidiyyəti orqanlarla müəyyən edilməsini və müvafiq ərazilərin baş dövlət baytarlıq müfəttişi ilə razılaşdırılmasını;

6.3.3. dövlət baytarlıq nəzarətində olan yüklərin daşınmasında istifadə edilən nəqliyyat vasitələrinin (konteynerlərin) beynəlxalq standartlara uyğun hazırlanmasını və istifadə olunmasını.

6.4. Dövlət baytarlıq nəzarətində olan yüklərin daşınması üçün baytarlıq sənədlərinin tərtibatı idxal-ixrac edən ölkələrin dövlət baytarlıq orqanları tərəfindən, digər işlər isə (nəqliyyatla təminat və s.) yük göndərən və ya yük qəbul edən şəxslər tərəfindən həyata keçirilir.

6.5. Ərazisində heyvanların xüsusi təhlükəli xəstəliklərinin baş verməsi qeydə alınan qonşu ölkələrdən Azərbaycan Respublikasının ərazisinə keçən nəqliyyat vasitələri gömrük orqanları tərəfindən məcburi dezinfeksiya edilməlidir.

6.6. Dövlət baytarlıq nəzarətində olan yüklərin tranziti onları göndərən və alan ölkələrin müvafiq ərazilərinin epizootik salamatlığı təsdiq olunarsa həyata keçirilir.

**Azərbaycan Respublikasının**
**Kənd Təsərrüfatı Nazirliyi**
**yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti**

______________________________

**(dövlət baytarlıq orqanının adı)** [5]

"Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, idxal-ixrac edilən heyvanların, heyvan mənşəli məhsulların və xammalın baytarlıq (baytarlıq-sanitariya) vəziyyətinin yoxlanılması və müvafiq baytarlıq sənədinin verilməsi, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları"na

**1 nömrəli əlavə**

**BAYTARLIQ ARAYIŞININ FORMASI**

№

"_____"_____________20___il

Mən, aşağıda imza edən dövlət baytar müfəttişi, həmin baytarlıq arayışını verirəm ____________________________________________________________________________

____________________________________________________________________________

(hüquqi şəxsin adı və ya fiziki şəxsin soyadı, adı, atasının adı)

ondan ötrü ki, ona məxsus ____________________________________________________________

____________________________________________________________________________

(yükün adı, növü, yaşı, cinsi)

Miqdarda ____________________________________________________ (kq, yer, ədəd, baş) cəlb edilmişdir)

Yük göndərilir ______________________________________________________________________

(nəqliyyat növü, hərəkət marşrutu, alanın adı və ünvanı)

____________________________________________________________________________

(emal, saxlama, istifadə üçün, realizasiya, kəsim, yetişdirmə üçün və s.)

Xüsusi qeydlər

______________________________________________________________________________

________________________________________________________________________________________

__

Baytarlıq arayışının əsli yalnız şəhər (rayon) ərazisində etibarlıdır.

Səlahiyyətli şəxs

_____________________________________________________________________________

________________________________________________________________________________________

__

(soyadı, adı, vəzifəsi və ünvanı)

**İmza** ______________________

**M.Y.**

**Qeyd.** Baytarlıq arayışı yalnız şəhər (rayon) ərazisində daşınan dövlət baytarlıq nəzarətində olan yüklərə verilir.

**Azərbaycan Respublikasının**
**Kənd Təsərrüfatı Nazirliyi**
**yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti**

__________________________

**(dövlət baytarlıq orqanının adı)**

"Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, idxal-ixrac edilən heyvanların, heyvan mənşəli məhsulların və xammalın baytarlıq (baytarlıq-sanitariya) vəziyyətinin yoxlanılması və müvafiq baytarlıq sənədinin verilməsi, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları"na

**2 nömrəli əlavə**

**BAYTARLIQ ŞƏHADƏTNAMƏSİNİN FORMASI**

**№**

"_____"_____________20___il

Mən, aşağıda imza edən baytar həkimi, həmin baytarlıq şəhadətnaməsini vermişəm

________________________________________________________________________________________

__

(hüquqi şəxsin adı və ya fiziki şəxsin soyadı, adı, atasının adı)

ondan ötrü ki, baytarlıq baxışı zamanı göndərilən

_______________________________________________

________________________________________________________________________________________

__

(heyvanın, bioloji obyektin növünü və, mənşəyini göstərmək)

__________miqdarda ______________________________________________________________

baş

(yer, ədəd) yoluxucu xəstəliklərə görə xəstə və ya xəstəliyə şübhəli heyvan aşkar olunmadı və onlar çıxarılır

_____________________________________________________________

(təşkilatın adı, sahibinin soyadı, adı, atasının adı)

______________________________________________________________________________
__
(tam ünvanı, o cümlədən yaşayış məntəqəsinin adı, küçə və ev nömrəsi)

______________________________________________________________________________
__
xüsusi təhlükəli və karantin heyvan xəstəliklərinə görə sağlamdır.
Heyvan idxal olunan ölkənin tələbinə uyğun olaraq ixrac zamanı heyvanın çıxdığı təsərrüfat və ərazinin hansı müddətdə (ay, il) sağlam olduğu göstərilir

______________________________________________________________________________
__
Heyvan doğulduğu gündən, 6 aydan az olmamaqla (lazım olanın altından xətt çəkməli), yaxud ________________ay Azərbaycan Respublikasında olmuşdur.
Heyvan göndərilməmişdən əvvəl karantində saxlanılmışdır
__________________________________
(karantinin yeri və günü)

______________________________________________________________________________
__
Karantin müddətində heyvan digər heyvanlarla kontaktda olmamışdır, hər gün bədən temperaturu ölçülmüş və kliniki baxış aparılmışdır, şəhadətnamə verilən gün müayinə edilmiş xəstə və xəstəliyə şübhəli heyvan aşkar edilməmişdir. Karantin müddətində heyvandan götürülmüş material dövlət baytarlıq laboratoriyasında müayinə edilmişdir

______________________________________________________________________________
__
(laboratoriyanın adı qeyd olunmalı)

və aşağıdakı nəticələr alınmışdır:

| Xəstəliyin adı | Müayinənin tarixi | Müayinənin metodu | Müayinənin nəticələri |
|---|---|---|---|
| | | | |

Peyvəndləmə aparılıb: ________________________________________«___» __________ 20 ____ il
__________________________________________________________«___» __________ 20 ____ il
__________________________________________________________«___» __________ 20 ____ il
__________________________________________________________«___» __________ 20 ____ il
Heyvanlar parazitlərə qarşı işlənmişdir: ___________________________«___» __________ 20 ____ il
__________________________________________________________«___» __________ 20 ____ il
Müşayiət edilən yük və qablaşdırma materialları bilavasitə yükgöndərənin təsərrüfatından çıxır və infeksion xəstəlik törədiciləri ilə kontaktda olmamışdır.
Heyvanlar yollanılır_________________________________________________________________
(son mənzilin və qəbul edənin adları)

______________________________________________________________________________
__
Spesifikasiya (sürü cədvəli, qaimə) №____________________ «_____» ________________ 20 ____ il
nə üçün ________________________________________________________________________

(kökəlmə, artırma, satış, kəsim və s.)

yollanılır ___________________________________________________________________________

(dəmir yolu, avtomobil yolu, su yolu, hava yolu ilə

___________________________________________________________________________

avtomobilin, vaqonun №-si, gəminin adı, reys .№-si və sair)

marşrut üzrə

___________________________________________________________________________

(yol boyu əsas məntəqələri göstərmək)

___________________________________________________________________________

Nəqliyyat vasitələri təmizlənib və dezinfeksiya edilmişdir.

**Qeydlər:**

___________________________________________________________________________

(xüsusi təhlükəli yoluxucu xəstəliklərə tutulub sağalmış mal-qara

___________________________________________________________________________

göndərildikdə doldurulur, müəyyən olunmuş şəraitdə və xüsusi icazə ilə

___________________________________________________________________________

kim tərəfindən verilir, nömrə və tarix)

___________________________________________________________________________

(mal-qaranın yükləmə və boşalma zamanı, habelə yol boyu hərəkəti zamanı baytarlıq

___________________________________________________________________________

nəzarəti orqanlarının qeydləri)

Şəhadətnamə yükləmə və yol boyu yükün hərəkəti zamanı nəzarət üçün təqdim edilir və yük sahibinə təhvil verilir. Şəhadətnamənin surəti etibarsızdır. Şəhadətnamə blankının doldurulması qaydasında pozuntu hallan müəyyən edildikdə, aşkar olunmuş pozuntu göstərilməklə, şəhadətnamə Azərbaycan Respublikasının baş dövlət baytarlıq müfəttişinə təqdim edilir.

**BAYTAR HƏKİMİ**

**M.Y.**

___________________________

(vəzifəsi və imzası)

___________________________

(soyadı, adı, atasının adı)

**Qeyd**. Bu şəhadətnamə dövlət baytarlıq orqanı müfəttişləri tərəfindən dövlət baytarlıq nəzarətində olan diri heyvan və quşlara yalnız ölkə ərazisində daşınması üçün verilir.

**Azərbaycan Respublikasının**
**Kənd Təsərrüfatı Nazirliyi**
**yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti**

___________________________

**(dövlət baytarlıq orqanının adı)**

"Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, idxal-ixrac edilən heyvanların, heyvan mənşəli məhsulların və xammalın baytarlıq (baytarlıq-sanitariya) vəziyyətinin yoxlanılması və müvafiq baytarlıq sənədinin verilməsi, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları"na

**3 nömrəli əlavə**

**BAYTARLIQ ŞƏHADƏTNAMƏSİNİN FORMASI**

№

"_____"_____________20___il

Mən, aşağıda imza edən baytar həkimi, həmin baytarlıq şəhadətnaməsini vermişəm

__________________________________________________________________________________

(hüquqi şəxsin adı və ya fiziki şəxsin soyadı, adı, atasının adı)

ondan ötrü ki,

_______________________________________________________________________

(məhsulun mənşəyi və adı)

miqdarda ____________________ ____________________ ____________________

(yer, ədəd, kq) (qablaşdırma) (nişanlanma)

tədarük (istehsal) edilmiş

________________________________________________________________

(təşkilatın adı, sahibinin soyadı, adı, atasının adı, ünvanı)

____________________________________________ baytarlıq-sanitariya ekspertizasından tam keçmişdir.

(məhsulun istehsal tarixi)

Baytarlıq-sanitariya ekspertizasından keçmiş xammaldan hazırlanmışdır (lazım olanın altından xətt çəkməli) yararlı sayılır və

________________________________________________________________

__________________________________________________________________________________

(satış, məhdudiyyətsiz istifadə, əgər məhdudiyyət varsa səbəbi göstərilməli)

__________________________________________________________________________________

(yaxud baytarlıq-sanitariya ekspertiza qaydalarına uyğun emal etmək)

göndərilir

__________________________________________________________________________

(nəqliyyat növü, hərəkət marşrutu, daşınma şəraiti)

________________________________________ ________________________________________

(alıcının adı və ünvanı) (yük nəqliyyat sənədinin adı, №- si, verilmə tarixi)

məhsul əlavə laborator müayinəsindən keçirilmişdir

__________________________________________

(ekspertiza №-si və müayinənin nəticəsi)

__________________________________________________________________________________

Qeydlər: ________________________________________________________________________

(ərazinin epizootiki sağlamlığı, məhsulun ərazidən kənara çıxarılması üçün dövlət

__________________________________________________________________________________

baytarlıq orqanı tərəfindən verilən sənədin tarixi, nömrəsi və sair göstərilir)

Nəqliyyat vasitəsi təmizlənib və dezinfeksiya edilmişdir. Şəhadətnamə yükləmə və yol boyu yükün hərəkəti zamanı nəzarətin həyata keçirilməsi üçün təqdim olunur və yük alana təhvil verilir. Yükün doldurulması, boşaldılması və yol boyu hərəkəti zamanı baxışdan keçirilməsi barədə dövlət baytarlıq nəzarəti orqanlarının qeydiyyatı şəhadətnamənin arxa tərəfində aparılır. Şəhadətnamənin surəti etibarsızdır. Şəhadətnamə blankının doldurulması qaydasında pozuntu halları müəyyən edildikdə, aşkar olunmuş pozuntu göstərilməklə şəhadətnamə şəhər (rayon) dövlət baytarlıq müfəttişinə təqdim edilir.

__________________________________

(həkimin soyadı, adı, vəzifəsi, imzası)

**M.Y.**

**Qeyd.** Bu şəhadətnamə dövlət baytarlıq müfəttişləri tərəfindən dövlət baytarlıq nəzarətində olan heyvan mənşəli çiy məhsullara və xammala yalnız ölkə ərazisində daşınması üçün verilir.

"Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, idxal-ixrac edilən heyvanların, heyvan mənşəli məhsulların və xammalın baytarlıq (baytarlıq-sanitariya) vəziyyətinin yoxlanılması və müvafiq baytarlıq sənədinin verilməsi, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları"na

**4 nömrəli əlavə**

**Quduzluq xəstəliyinə görə qeyri-sağlam ölkələrdən çıxan it və pişiklərə verilən Beynəlxalq Baytarlıq Sertifikatının nümunəsi**

**Model International Veterinary Certificate For dogs and cats originating from rabies infected countries**

**№_____**

**I. Sahibi / Owner**

Soyadı və ünvanı /Surname and address

______________________________________________________

**II. Təsviri / Description**

Heyvanın növü / Species of animal

___________________________________________________________

Yaşı və ya doğum tarixi / Age or date of birth

__________________________________________________

Cinsi / Sex

________________________________________________________________________________

Cinsiyyəti / Breed

_________________________________________________________________________

Rəngi / Color

_____________________________________________________________________________

Xüsusi əlamətləri / Coat type and marking/distinguishing marks

_________________________________

______________________________________________________________________________________

______________________________________________________________________________________

İdentikləşdirmə nömrəsi (nişan və ya digər daimi identikləşdirmə üsulu ilə)/ Identification number (tattoo or other permanent method of identification)

____________________________________________

______________________________________________________________________________________

**III. Əlavə məlumatlar / Additional information**

İxrac edən ölkə / Country of origin

____________________________________________________________

Heyvanın olduğu ölkələr / Countries visited

___________________________________________________

Son 2 il müddətində / over the past 2 years

_____________________________________________________

Sahibin ərizəsinə görə /as declared by the owner
____________________________________________

(tarixləri qeyd etməklə) / (give dates)

_____________________________________________________

## IV. Peyvəndləmə (quduzluq) / Vaccination (Rabies)

Mən, aşağıda imza edən təsdiq edirəm ki, II bənddə təsvir olunan heyvanı quduzluğa qarşı aşağıda qeyd olunduğu kimi peyvənd etmişəm. Peyvənd zamanı heyvan sağlam idi.
I the undersigned declare herewith that I have vaccinated the animal described in Part II against rabies as shown below. The animal was found to be healthy on day of vaccination.

| Peyvəndləmənin tarixi (gün, ay, il) / Date of vaccination (dd/mm/yy) | İnaktivləşdirilmiş vaksin / Name of inactivated virus vaccine | 1. İstehsalçı müəssisə /Manufacturing laboratory<br>2. Seriyası / Batch number<br>3. Yararlılıq müddəti / Expiry date | Baytar müfəttişinin soyadı, adı və imzası / Name (in capital letters and signature of the veterinarian |
|---|---|---|---|
| | | | |

| Beynəlxalq daşımalarda peyvəndləmələrin təsir müddəti / Period of validity of vaccination for international movement | | Baytar müfəttişinin soyadı, adı və imzası / Name (in capital letters) and signature of the Official Veterinarian | |
|---|---|---|---|
| (gün, ay, il)-dən / from (dd/mm/yy) | (gün, ay, il)-dək / to (dd/mm/yy) | | |
| | | | |

## V. Seroloji nəzarət (quduzluq) / Serological testing (Rabies)

Mən, aşağıda imza edən, təsdiq edirəm ki, II bənddə təsvir edilən heyvandan qan alaraq, rəsmi laboratoriyanın keçirdiyi neytrallaşma reaksiyasında antitelin titrasiyasının aşağıda qeyd edilən nəticələrini almışam / I the undersigned declare herewich that I have taken a blood sample from the animal described in Part II and have received the following result from the official diagnostic laboratory which has carried out the neutralizing antibody titration test

| Qanalmanın tarixi (gün, ay, il) / Date of sampling (dd/mm/yy) | Rəsmi laboratoriyanın adı və ünvanı / Name and address of the official diagnostic laboratory | Neytrallaşma reaksiyasında antitellərin titrasiyasının nəticələri (beyn.vi/ml) / Result of the antibody titration test (in International Units [IU]/ml | Baytar müfəttişinin soyadı, adı və imzası / Name (in capital letters and signature of the veterinarian |
|---|---|---|---|
| | | | |

| Beynəlxalq daşımalarda seroloji testləşmənin təsir müddəti / Period of validity of serological testing for international movement | | Baytar müfəttişinin soyadı, adı və imzası / Name (in capital letters) and signature of the Official Veterinarian | |
|---|---|---|---|
| (gün, ay, il)-dən / from (dd/mm/yy) | (gün, ay, il)-dək / to (dd/mm/yy) | | |
| | | | |

## VI. Kliniki müşahidə (quduzluq) / Clinical examination (Rabies)

Mən, aşağıda imza edən qeyd edilən gün II bənddə təsvir edilən heyvanı kliniki müayinədən keçirmişəm və onun sağlam olduğunu təsdiq edirəm /1 the undersigned declare herewich that I have ixamined on the date indicated below the animal described in Part II and have found it to be clinically healthy

| Tarix (gün, ay, il) / Date (dd/mm/yy) | Baytar müfəttişinin soyadı, adı və imzası / Name (in capital letters and signature of the veterinarian | Rəsmi baytar müfəttişinin soyadı, adı və imzası / Name (in capital letters and signature of the Official Veterinarian |
|---|---|---|
| | | |

Rəsmi möhür / Official stamp
Tərtib edilib / Issued at ____________________________tarix

/on______________________________________
Səlahiyyətli şəxsin soyadı, adı, vəzifəsi və ünvanı
Name and address of Veterinarian

__________________________________________________________________

İmza /Signature

___________________________________________________________________________________

“____”_____________________20 ____ items

**ƏLAVƏLƏR /NOTE**

1. Sertifikatda qeyd edilən identikləşdirmə nömrəsi, heyvanda olan nömrə ilə uyğun olmalıdır. İdentikləşdirmə elektron vasitələrlə aparıldıqda, istifadə edilmiş mikrosxemlərin tipi və istehsalçı qeyd olunmalıdır /The identification number stated in the certificate should be identical to that which can be found on the animal. When electronic identification is used, the type of microchip and the name of the manufacturer should be specified.

2. İt və pişiklərin beynəlxalq daşımalarında yalnız inaktivləşdirilmiş vaksinlərin istifadəsinə icazə verilir / Only inactivated virus vaccines are authorized for international movements of dogs and cats.

